## “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın 2023-cü il üzrə iş planı

| |
|---|
| **MİLLİ PRİORİTET 1. DAYANIQLI ARTAN RƏQABƏTQABİLİYYƏTLİ İQTİSADİYYAT** |
| **MƏQSƏD 1.1. DAVAMLI VƏ YÜKSƏK İQTİSADİ ARTIM** |
| **Fəaliyyət istiqaməti 1.1.7. İqtisadiyyatın şəffaflaşması, şaxələnməsi və investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı vergi siyasətinin tətbiq olunması** |
| **Tədbir 1.1.7.1. Kölgə iqtisadiyyatı ilə sistemli mübarizə aparılması, habelə şəffaflıq səviyyəsinin artırılması üçün vergi siyasətində rəqəmsallaşmanın genişləndirilməsi** |
| Tədbirin icrası ilə bağlı kölgə iqtisadiyyatı və vergidən yayınma hallarına qarşı mübarizənin gücləndirilməsi, vergi nəzarəti mexanizminin və vergi inzibatçılığının təkmilləşdirilməsi, həmçinin rəqəmsallaşmanın genişləndirilməsi məqsədilə 2023-cü il ərzində aşağıdakı istiqamətlər üzrə layihələr hazırlanmışdır:<br>• Riskli vergi ödəyicisi ilə mübarizə - riskli vergi ödəyiciləri ilə bağlı mövcud mexanizmin təkmilləşdirilməsi, əmtəəsiz əməliyyatları aparan şəxslərə maliyyə sanksiyasının tətbiqi, riskli vergi ödəyicisinin meyarların azaldılması və vergi ödəyicisinin riskli vergi ödəyicisi siyahısına daxil edilməsi və siyahıdan çıxarılmasının mexanizminin müəyyən edilməsi;<br>•Mikro sahibkarlıqdan kiçik sahibkarlıq kateqoriyasına keçidin stimullaşdırılması, habelə məşğulluq yaradan mikro sahibkarlıq subyektlərinə (il üzrə orta aylıq muzdlu işçi sayı 3 nəfərdən az olmayan və həmin işçilərə görə məcburi dövlət sosial sığorta haqlarını ödəyən) 75 faiz güzəştin hədəfli tətbiqi, habelə əmtəəsiz əməliyyatlar aparan şəxslərə bu güzəştin tətbiq edilməməsi; •Alış aktı ilə alınan mallar üzrə xərclərin məhdudlaşdırılması və nəzarət kassa aparatının çeki ilə alınan mallar üzrə xərclərin müəyyən hissəsinin gəlirdən çıxılması;<br>•Sənədsiz xərclərin gəlirdən çıxılmasının məhdudlaşdırılması;<br>•Tütün məmulatları üzrə aksiz vergisinin markaların (məcburi nişanlamanın) alınması zamanı əvvəlcədən ödənilməsi mexanizminin tətbiqi, habelə bir sıra aksizli mallar üzrə aksiz dərəcələrinin optimallaşdırılması (içməli spirt, araq, konyak, likyor və tütün məmulatları);<br>• Avans ödənişlərə görə elektron qaimə fakturanın verilməsinin və onun verilmə vaxtının müəyyən edilməsi.<br>Qeyd olunan layihələr “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 05.12.2023-cü il tarixli 1033-VIQD nömrəli Qanunu ilə təsdiq edilmiş və 1 yanvar 2024-cü il tarixdən qüvvəyə minmişdir. |
| **Tədbir 1.1.7.2. İqtisadiyyatın strateji sahələrinin inkişafının stimullaşdırılması, habelə investisiya və kapital qoyuluşu həcminin artırılması üçün vergi təşviqi alətlərindən effektiv istifadə edilməsi** |
| Sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, investisiya və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi məqsədilə 2023-cü il ərzində aşağıdakı istiqamətlər üzrə layihələr hazırlanmışdır:<br>• Maliyyə lizinqi üzrə maliyyələşmə mühitində bərabər vergi rejiminin yaradılması, ƏDV nin dəyər zənciri üzrə son istehlakçıya ötürülməsi yolu ilə vergi yükünün azaldılması və ödənilən ƏDV-ni əvəzləşdirmək hüququnu biznesə verməklə vergi yükünün optimallaşdırılması;<br>• Kredit təşkilatlarının ödənilməyən borclar müqabilində balansa götürdüyü girov əmlakların və torpaqların əmlak və torpaq vergilərindən 2 il müddətinə azad edilməsi;<br>• ƏDV-nin əvəzləşdirilməsi hüquqlarının faktorinq (tələbin güzəşti) əməliyyatları üzrə nəzərə alınması ilə maliyyə institutlarının fəaliyyətinə dəstəyin verilməsi;<br>• Dividendlər üzrə ödəmə mənbəyində vergi dərəcəsinin 10 faizdən 5 faizə azaldılması;<br>• Tədris bazası kimi fəaliyyət göstərən tibb müəssisələrində tibbi xidmətlərin göstərilməsinin 2024-cü il yanvarın 1-dən 3 il müddətinə ƏDV dən azad edilməsi;<br>• Səhiyyə müəssisələrində nağdsız qaydada ödənişlərin 50 faizi həcmində dövriyyələrin vergitutulan dövriyyədən çıxılması ilə əməktutumlu biznesin vergi yükünün optimallaşması;<br>• Kənd təsərrüfatı sahəsi üzrə 2024-cü ildə müddəti bitən vergi güzəştlərinin vaxtının daha 3 il müddətinə uzadılması;<br>• Mikro sahibkarlıq subyekti olan fiziki şəxslərin özlərinə görə ödədiyi sosial sığorta haqlarının vergi yolu ilə subdiyalaşdırılması - ödənilmiş sosial sığorta haqqı məbləğinin 25 faizinin gəlir vergisi və sadələşdirilmiş vergidən çıxılması;<br>• Yük avtomobillərinin təmiri ilə bağlı təmir xərci normalarının artırılması;<br>• Regional turizmin inkişaf etdirilməsi və turizm subyektlərinin sabit vergi xərclərinin optimallaşdırılması məqsədilə əmlak vergisinin 3 il müddətinə 75 faiz azaldılması və s.<br>Qeyd olunan layihələr “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 05.12.2023-cü il tarixli 1033-VIQD nömrəli Qanunu ilə təsdiq edilmiş və 1 yanvar 2024-cü il tarixdən qüvvəyə minmişdir. |